

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 aprel 2025-ci il №27 (2936) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərqərar edilməsi də bizim birgə maraqlarımızda olan məsələdir və burada həm Gürcüstan, həm Azərbaycan öz töhfəsini verir

*Gürcüstan Prezidenti Mixeil Kavelaşvili aprelin 15-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.*

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvilini hava limanında Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili aprelin 16-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.



Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

(Ardı 2-ci səhifədə)

## Hulusi Akar: Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər səmimiyyətə və qardaşlığa əsaslanır

Aprelin 16-da Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM-in) Milli müdafiə komitəsinin sədri Hulusi Akarın başçılıq etdiyi parlament nümayəndə heyəti ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Görüşdə çıxış edən Ziyafət Əsgərov deyib ki, bu gün Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər qardaşlığın və dostluğun ən yüksək zirvəsidir və dövlət başçılarımızın imzaladığı Şuşa Bəyannaməsi bu müttəfiqliyimizin hüquqi çərçivəsini təşkil edir.

Ziyafət Əsgərov bildirib ki, müstəqil siyasət yürüdən Türkiyəyə və Azərbaycana təzyiqlər var və bu təzyiqləri dəf etmək üçün səylərimizi birləşdirməli, daha güclü olmalıyıq. O, Azərbaycan və Türkiyə, həmçinin türk dövlətləri arasında təhlükəsizlik və müdafiə üzrə əməkdaşlığın gücləndirilməsi ilə bağlı fikirlərini bölüşüb.

TBMM-in Milli müdafiə komitəsinin sədri Hulusi Akar bildirib ki, hər iki ölkə milli təhlükəsizliyin qorunması və cəmiyyətin rifahı naminə bütün lazımi addımları həyata keçirir. O, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin səmimiyyətə və qardaşlığa əsaslandığını deyərək, Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın dostluğu sayəsində əməkdaşlığımızın bundan sonra daha da inkişaf edəcəyini bildirib.

Hulusi Akar Azərbaycan Prezidenti İlham Əliyevin Şimali Kipr Türk Cümhuriyyəti ilə bağlı mövqeyini çox yüksək qiymətləndirdiklərini vurğulayıb. Türk dövlətləri arasında əməkdaşlığın ortaq təhdidlərə qarşı birgə mübarizə, regional təhlükəsizlik və sabitlik baxımından əhəmiyyəti barədə danışıb.

Görüş tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi ilə davam etdirilib.

## Qazaxıstanlı qonaqlar Komando və XTQ hərbi hissələrində olublar



*Azərbaycanda səfərdə olan Qazaxıstan Həmlə-Desant Qüvvələrinin komandanı general-mayor Almaz Cumakeevin rəhbərlik etdiyi nümayəndə heyəti Komando və Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrini ziyarət edib.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılmış büstü önünə gül dəstələri düzülərək xatirəsi dərin hörmət və ehtiramla anılıb.

Qazaxıstan nümayəndə heyətini qarşılayan general-mayor Akif Pirverdiyev onları ölkəmizdə görməkdən məmnun olduğunu ifadə edib. Qonaqlara hərbi hissənin tarixi və gündəlik fəaliyyəti, maddi-texniki təchizatı barədə brifinq təqdim olunub, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

(Ardı 6-cı səhifədə)

## Hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyəti diqqət mərkəzindədir

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi tərəfindən müxtəlif bölmələrdə xidmət edən gənc əsgərlərlə görüşlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə əsas diqqət hərbi kollektivlərdə milli-mənəvi dəyərlərimizin təbliğinə, mənəvi-psixoloji vəziyyətin, sosial problemlərin öyrənilməsinə, hüquq qaydaları və hərbi intizamın möhkəmləndirilməsi məsələlərinə yönəldilib.



(Ardı 6-cı səhifədə)

## Dərbənddə Dağıstan və Azərbaycan veteranlarının birgə forumu keçirilib

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov faşizm üzərində qələbənin 80 illiyinə həsr olunan Dağıstan və Azərbaycan veteranlarının birgə forumunda iştirak edib.

AZƏRTAC xəbər verir ki, Dərbənddə keçirilən forumun əsas məqsədi Dağıstan və Azərbaycan respublikalarının veteranları və xalqları arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi, İkinci Dünya müharibəsində xalqlarımızın şücaətinin genetik yaddaşda qorunması, gənc nəslin hərbi-vətənpərvərlik və mənəvi-əxlaqi tərbiyəsinin yüksəldilməsindən ibarət olub.




Forumda çıxış edən polkovnik Azərbaycan xalqının İkinci Dünya müharibəsində göstərdiyi qəhrəmanlıqlar haqqında danışıb, general Həzi Aslanovun, partizan hərəkatının görkəmli nümayəndəsi, kəşfiyyatçı Mehdi Hüseynzadənin və digər qəhrəmanların həyat və döyüş yolunun müasir gənclər üçün örnək olduğunu bildirib.

(Ardı 6-cı səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərqərar edilməsi də bizim birgə maraqlarımızda olan məsələdir və burada həm Gürcüstan, həm Azərbaycan öz töhfəsini verir





(Əvvəli 1-ci səhifədə)

Azərbaycanda rəsmi səfərdə olan Gürcüstan Prezidenti Mixeil Kavelaşvili aprelin 16-da Şəhidlər xiyabanını ziyarət edib.

Mixeil Kavelaşvili Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

* * *

Aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Prezidenti Mixeil Kavelaşvilinin təkbətək görüşü keçirilib.

* * *

Aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Sizi prezident vəzifəsinə seçilməyiniz münasibətilə bir daha ürəkdən təbrik edirəm, Sizə uğurlar arzulayıram. Mən çox şadam ki, prezident vəzifəsinə seçiləndən sonra Siz ilk rəsmi səfəri Azərbaycana edirsiniz. Biz bunu Azərbaycanda çox yüksək qiymətləndiririk. Bu, bir daha Gürcüstan-Azərbaycan əlaqələrinin mahiyyətini, xalqlarımızın dostluğunu, qardaşlığını göstərir.

Əsrlər boyu bizim xalqlarımız sülh, mehribanlıq, qardaşlıq şəraitində yaşamışlar. Bu gün də bu, belədir. Dövlətlərarası münasibətlər də yüksək səviyyədədir. Gürcüstan və Azərbaycan birgə bir çox önəmli layihələri icra ediblər və bu layihələr həm ölkələrimiz üçün, xalqlarımız üçün, həm də daha geniş coğrafiya üçün böyük önəm daşıyır. Təbii olaraq siyasi əlaqələr inkişaf edir. Yüksəksəviyyəli təmaslar müntəzəm xarakter daşıyır, siyasi dialoq fəaldır. Yəni, iki dost, qardaş ölkə, sözün əsl mənasında, bir-birinə çox bağlıdır və beynəlxalq təşkilatlarda da daim bir-birini dəstəkləyir. Bizi birləşdirən bir çox sərmayə layihələri qeyd etdiyim kimi, böyük coğrafiya üçün önəmlidir. Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri, neft-qaz kəmərləri, nəqliyyat, kommunikasiya layihələri, sözün əsl mənasında, böyük əhəmiyyət daşıyan layihələrdir və nəinki Cənubi Qafqazın, Avrasiya regionunun nəqliyyat və enerji xəritəsini yenidən tərtib edən layihələrdir. Əgər biz bu gün Avropanın enerji təhlükəsizliyi haqqında danışırıqsa, bunu Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil. Hazırda Gürcüstan daxil olmaqla Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bu ixrac Gürcüstan vasitəsilə həyata keçirilir. Nəqliyyat-kommunikasiya sahəsində əldə olunmuş nailiyyətlər, yeni inşa edilmiş dəmir yolları, limanlar həm Azərbaycanda, həm də Gürcüstanda böyük sinergiya yaratmış və əslində, Orta Dəhlizin ayrılmaz hissəsinə çevrilmişdir. Əgər bu gün biz Cənubi Qafqazda Orta Dəhliz layihəsindən danışırıqsa, bu, Azərbaycandan və Gürcüstandan keçən dəhlizdir. İldən-ilə ölkələrimizin ərazisindən keçən yüklərin həcmi artır və bu yüklərin həcminin artırılması üçün əlavə addımlar atılır.



Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərqərar edilməsi də bizim birgə maraqlarımızda olan məsələdir və burada həm Gürcüstan, həm Azərbaycan öz töhfəsini verir. Əfsuslar olsun ki, uzun illər ərzində Cənubi Qafqaz münaqişə, müharibə arenasına çevrilmişdir. Ümid edirəm ki, bundan sonra Cənubi Qafqazın qara səhifələri bağlanacaq və tarixdə qalacaq.

Gürcüstan-Azərbaycan əlaqələri haqqında çox danışmaq olar. Sadəcə, onu bildirmək istəyirəm ki, bundan sonra da bizim əlaqələrimiz yüksələn xətlə inkişaf edəcək.

Mən bir daha cənab Prezidentə təşəkkürümü bildirirəm. Əminəm ki, Azərbaycan xalqı da onun qərarını yüksək qiymətləndirəcək. Çünki adətən seçkilərdən sonra birinci səfər rəmzi xarakter daşıyır və bu səfər Azərbaycana edilib. Eyni zamanda, Gürcüstanın Baş naziri də seçkilərdən sonra ilk rəsmi səfərini Azərbaycana edib. Yəni, bu, artıq gözəl ənənəyə çevrilib. Buna görə bir daha Sizə təşəkkürümü bildirirəm və fəaliyyətinizdə yeni uğurlar arzulayıram.



* * *

Sonra Gürcüstanın Prezidenti bəyanatla çıxış edib.

### Prezident Mixeil Kavelaşvilinin bəyanatı

- Zati-aliləri cənab Prezident.

Nümayəndə heyətinin üzvləri.

Media nümayəndələri, xanımlar və cənablar.

İlk növbədə, səmimi qəbula və qonaqpərvərliyə görə Prezident İlham Əliyevə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Bu, mənim Gürcüstan Prezidenti kimi ilk xarici səfərimdir. Bu səfərdə Gürcüstanla Azərbaycan arasında strateji və xüsusi mehriban qonşuluq münasibətləri vurğulanır. Bu vəzifəyə seçildikdən sonra tezliklə Azərbaycana səfər etmək mənim üçün vacib idi.

Şadam ki, artıq cənab İlham Əliyevlə görüşmək imkanım olub. Biz Gürcüstanla Azərbaycan arasında çoxsaxəli nümunəvi əlaqələr, Cənubi Qafqaz regionunun çağırışları, dünyada gedən cari proseslər barədə düşüncələrimizi və fikirlərimizi bölüşdük.

Əsrlər boyu xalqlarımız arasında bənzərsiz dostluq inkişaf edərək əməkdaşlığın gələcəkdə daha da möhkəmlənməsi üçün etibarlı zəmin yaradıb. Milli özünəməxsusluğu qoruyub saxlamaq, adət-ənənələrə, mədəniyyətə, tariximizə hörmət xalqlarımızın xüsusi diqqət yetirdiyi təməl prinsiplərdir.

Bizim dostluğumuz qarşılıqlı hörmətə və bir-birimizin milli maraqlarının nəzərə alınmasına əsaslanır. Biz münasibətlərdə güvənməyin nə qədər vacib olduğunu başa düşürük və sözümüzün dəyərini bilirik. Bizi xilas edən və bu günə çatdıran bir sıra yazılmamış qanunlarımız, dəyərlərimiz var. Ona görə də Gürcüstan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığı bu qədər xüsusi və nümunəvidir.

Çağırışlar və təhlükələrlə dolu bugünkü qloballaşma dövrü bir çox fundamental dəyərləri təhdid edir. Ona görə də biz bu prinsipləri qorumaq üçün xüsusi diqqət və səy göstərməliyik. Gürcü və Azərbaycan xalqları millətlərimiz üçün həyati əhəmiyyət kəsb edən dəyərlərin qorunması uğrunda mübarizədə bir yerdədir və bundan sonra da birlikdə olacaqlar.

Mən qəti əminəm ki, zamanın sınağından çıxmış yüksəksəviyyəli strateji və mehriban qonşuluq münasibətləri daha da möhkəmlənəcək, Gürcüstanın və Azərbaycanın milli maraqlarının həyata keçirilməsində yeni müstəviyə keçəcək. Regionun və dünyanın qarşısında duran vəzifələrin səmərəli həlli üçün ölkələrimiz arasında bütün sahələrdə sıx əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir.

Biz bir sıra ümumi, qarşılıqlı faydalı layihələr həyata keçiririk ki, bu da bütün dünya üçün regionumuzu daha da cəlbedici edir. Cənubi Qafqaz regionunun daha da rəqabətədavamlı, etibarlı və perspektivli olması üçün davamlı sülhün və sabitliyin təmin edilməsi vacibdir.

Vurğulamaq istərdim ki, Gürcüstanla Azərbaycan bir-birinin suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir. Buna görə cənab Prezidentə bir daha təşəkkür etmək istərdim. Gürcüstan həmişə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin güclü tərəfdarı olub.

Gürcüstan Azərbaycan və Ermənistan arasında sülh sazişinin bütün bəndləri üzrə danışıqlar prosesinin bu yaxınlarda başa çatmasını alqışlayır. Bu, şübhəsiz ki, regionun potensialının, imkanlarının nümayişində və istifadəsində irəliyə doğru atılmış addımdır. Ümid edirik ki, yaxın gələcəkdə tarixi saziş imzalanacaq və regionda uzunmüddətli, davamlı sülhün təmin edilməsi üçün həlledici təkan olacaq.

Gürcüstanın bəyan etdiyi sülh siyasətini və regionda sülhün təmin olunmasına töhfə verməyə hazır olduğunu bir daha vurğulamaq istərdim. Sizi əmin etmək istərdim ki, Gürcüstan həmişə Cənubi Qafqazda dialoqun, diplomatiyanın, dinc yanaşı yaşamağın tərəfdarı olub və bu kurs gələcəkdə də davam edəcək.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərqərar edilməsi də bizim birgə maraqlarımızda olan məsələdir və burada həm Gürcüstan, həm Azərbaycan öz töhfəsini verir



(Əvvəli 2-ci səhifədə)

Ölkələrimiz arasında mövcud olan xüsusi, çoxəsrlik dostluq və ümumi düşünülmüş siyasət bizə regionumuzun rolunu düzgün müəyyənləşdirməyə imkan verib. Əminəm, bizim ümumi gələcəyimizə uğurlu, iqtisadi cəhətdən güclü və firavan Cənubi Qafqaz regionu daxildir ki, burada xalqlarımız öz adət və ənənələri ilə birgə yaşaya biləcəklər, dırnaqarası liberal dəyərlərlə yox.

Təəssüf ki, son vaxtlar ölkələrimiz dəfələrlə ikili standartların və xarici qüvvələrin daxili işlərə müdaxiləsinin obyektinə çevrilib. Çoxsaylı səylərə baxmayaraq, biz bu təhlükələri qətiyyətlə aradan qaldırırıq, regionun təhlükəsizliyini və sabitliyini təmin edirik.

Heç bir üçüncü ölkə və ya təşkilatın xalqlarımız üçün nəyin yaxşı olduğunu bizdən yaxşı bilməsi mümkün deyil. Şadam ki, Azərbaycan ilə Gürcüstan arasında ümumi maraqların müdafiəsi sahəsində əməkdaşlıq intensivləşib və cənab Prezident, buna görə Sizə bir daha təşəkkür edirəm.

Düzgün və ardıcıl siyasətlə biz regionun potensialından tam istifadə etməli, dünyanın geosiyasi xəritəsində güclü, etibarlı, birləşdirici körpü funksiyasını yerinə yetirməliyik. Əminəm ki, ölkələrimizin və xalqlarımızın mənafeyi naminə bir-birimizin maraqlarını nəzərə alaraq əlaqələrimiz daha da sürətlə inkişaf edəcək.

Hörmətli həmkarım, cənab Prezident, səmimi qonaqpərvərliyinizə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, yaxın gələcəkdə Sizi Gürcüstanda qəbul etmək şərəfinə nail olacağam.

Təşəkkür edirəm.

* * *



Aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə nahar əsnasında geniş tərkibdə görüşü olub.

* * *

Gürcüstan Prezidenti Mixeil Kavelaşvilinin Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 16-da başa çatıb.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvilini hava limanında Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan və Serbiya HHQ komandanları görüşüb







Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Namiq İslamzadə ölkəmizdə səfərdə olan Serbiya Respublikası HHQ və Hava Hücumundan Müdafiə komandanı general-mayor Brane Krnyayiçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, HHQ-nin Mərkəzi Komanda Məntəqəsində keçirilən görüşdə qonaqları salamlayan general-leytenant N.İslamzadə onları ölkəmizdə görməkdən məmnunluğunu ifadə edib.

Tərəflər hər iki ölkənin HHQ-si ilə bağlı görülən işlərin cari vəziyyətini təhlil edib, perspektivdə duran məsələlər ətrafında geniş müzakirələr aparıblar.

Görüş başa çatdıqdan sonra Serbiyadan olan nümayəndə heyətinə müasir standartlara uyğun qurulmuş, modern idarəetmə sistemləri ilə təchiz olunmuş komanda məntəqəsinin fəaliyyət istiqaməti və qarşıda duran məqsədləri barədə ətraflı məlumat verilib.

Sonda qonaqları maraqlandıran suallar cavablandırılıb.

## Azərbaycan və İtaliya HHQ-nin əməkdaşları arasında ekspert görüşü keçirilib



"Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə İtaliya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı arasında 2024-2025-ci illər üçün imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planı"na əsasən hər iki ölkənin Hərbi Hava Qüvvələri (HHQ) arasında əməkdaşlıq sahəsi üzrə ekspert görüşü keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə Azərbaycan və İtaliya HHQ-nin hərbi əməkdaşlıq məsələləri müzakirə olunub, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Ekspert görüşü zamanı qarşılıqlı təcrübə mübadiləsi məqsədilə bu cür tədbirlərin keçirilməsinin əhəmiyyəti xüsusi qeyd edilib.

## Qazaxıstan nümayəndə heyəti Azərbaycan HHQ-ni ziyarət edib



Qazaxıstan Respublikasının Hərbi Hava Qüvvələrinin nümayəndə heyəti Azərbaycan Hərbi Hava Qüvvələrini ziyarət edib. Görüşdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin, Dövlət Mülki Aviasiya Agentliyinin, Xarici Kəşfiyyat İdarəsinin, "Azərbaycan Hava Yolları" QSC-nin və "Azəraeronaviqasiya" Hava Hərəkətləri İdarəsinin nümayəndələri də iştirak ediblər.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə qərargahda keçirilən görüşdə Azərbaycan Hərbi Hava Qüvvələrinin nümayəndəsi qonaqları salamlayıb. Görüş zamanı "Təxirəsalınmaz uçuşların təmin edilməsi zamanı qarşılıqlı əlaqə və qarşılıqlı fəaliyyətin təşkili məsələlərinin müzakirəsi" mövzusu çərçivəsində maraq doğuran bir çox məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, iştirakçıların sualları cavablandırılıb.

Sonda xatirə şəkli çəkdirilib və qonaqlara hədiyyələr təqdim olunub.

# Azərbaycan Respublikasının müdafiə naziri Türkiyə parlamentinin Milli müdafiə komissiyasının sədri ilə görüşüb







***Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov aprelin 16-da Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri cənab Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə Nazirliyi xəbər verir ki, Türkiyə parlamentinin Milli müdafiə komissiyasının sədri protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

General-polkovnik Z.Həsənov qonaqları Azərbaycanda görməkdən məmnun olduğunu bildirib. Nazir hər iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətlərinin Azərbaycan və Türkiyə arasında bütün sahələrin, o cümlədən hərbi əməkdaşlığın inkişafında xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Cənab H.Akar isə öz növbəsində Azərbaycana cari ildə ilk səfərindən razılıq ifadə edib, hər zaman olduğu kimi göstərilən səmimi münasibətə və qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən qonaq Azərbaycan və Türkiyənin strateji müttəfiqlik səviyyəsinə çatan hərbi əlaqələrinin daim inkişaf etdiyini xüsusi vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran, o cümlədən regional təhlükəsizliyə dair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikasının müdafiə naziri Türkiyə HDQ komandanını qəbul edib







***Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyənin Hərbi Dəniz Qüvvələri (HDQ) komandanı donanma admiralı Ercüment Tatlıoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***





Müdafiə Nazirliyi xəbər verir ki, qonaqlar əvvəlcə Zəfər parkına gələrək Zəfər abidəsinin önünə əklil qoyub. Sonra Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın məzarları ziyarət olunub, xatirələri dərin hörmət və ehtiramla yad edilib. Qonaqlar, həmçinin Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını və Türk şəhidliyini ziyarət edərək əklil və gül dəstələri düzüblər.

Qonaqları salamlayan müdafiə naziri onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan ilə Türkiyə arasında mövcud əməkdaşlığın, dostluq və qardaşlıq münasibətlərinin qarşılıqlı inam, etimad və dəstəyə əsaslandığını xüsusi olaraq qeyd edib.

Hər zaman qardaş ölkəyə səfərlərindən və orada keçirdiyi görüşlərdən razı qaldığını bildirən general-polkovnik Z.Həsənov Türkiyə Respublikasında keçirilən beynəlxalq təlimlərin təşkilatçılığını, eləcə də iştirak edən hərbi qulluqçularımızın peşəkarlığını yüksək qiymətləndirib.

Donanma admiralı E.Tatlıoğlu da öz növbəsində göstərilən səmimi münasibətə və qonaqpərvərliyə görə minnətdarlığını bildirib, ölkəmizdə səfərdə olmaqdan məmnunluğunu ifadə edib. Yüksək rütbəli qonaq strateji müttəfiqlik səviyyəsinə çatan hərbi əlaqələrimzin hər iki qardaş ölkənin HDQ-nin inkişafına da müsbət təsirini diqqətə çatdırıb.

Görüşdə hərbi, hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və gələcəkdə daha da genişləndirilərək inkişaf etdirilməsi üzrə məsələlər müzakirə olunub, hər iki ölkənin HDQ arasında əlaqələrin imkan və perspektivlərindən danışılıb.





Daha sonra Azərbaycan Respublikasının müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay ilə görüş keçirilib. Səmimi dialoq çərçivəsində keçən görüşdə Azərbaycan Ordusunun Türkiyə Respublikası Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərin müsbət nəticələri barədə geniş fikir mübadiləsi aparılıb.

Türkiyə nümayəndə heyəti sonda Azərbaycan HDQ-ni ziyarət edib. Qonaqları qarşılayan Azərbaycan HDQ-nin komandanı 1-ci dərəcəli kapitan Şahin Məmmədov türkiyəli həmkarı ilə qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələr aparıb.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Slovakiyada rəsmi səfərdədir





Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin Slovakiya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Daniel Zmekonun dəvəti ilə bu ölkəyə rəsmi səfəri başlayıb.

Müdafiə Nazirliyi xəbər verir ki, səfərin ilk günü Azərbaycan nümayəndə heyətinin rəsmi qarşılanma mərasimi keçirilib.

Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik K.Vəliyevin slovakiyalı həmkarı general D.Zmeko ilə görüşündə hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib, qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Sonra general-polkovnik K.Vəliyev Slovakiya müdafiə nazirinin müavini cənab Martin Voytaşoviç ilə görüşüb.

Tərəflər hər iki ölkə arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığa dair müzakirələr aparıblar.



* * *

Slovakiyaya rəsmi səfəri çərçivəsində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və onun rəhbərlik etdiyi nümayəndə heyəti Slovakiya Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Daniel Zmeko ilə birlikdə bu ölkənin müdafiə sənayesi şirkətlərini və hərbi təlim mərkəzini ziyarət ediblər.

Azərbaycan nümayəndə heyətinə hərbi şirkətlərin fəaliyyəti, istehsal olunan silah və hərbi təyinatlı məhsullar barədə brifinqlər təqdim olunduqdan sonra ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

Elə həmin gün Azərbaycan nümayəndə heyəti Zahorie Hərbi-Texniki və Hərbi Sınaq İnstitutu və Slovakiya Müdafiə Nazirliyinin "Leşt" Təlim Mərkəzində olub.

Azərbaycan nümayəndə heyətinə institutun fəaliyyəti barədə ətraflı məlumat verildikdən sonra silahlanmada olan hərbi texnika nümayiş etdirilib.

Sonra "Leşt" hərbi təlim mərkəzinin fəaliyyəti barədə məlumat verilib, təhlükəsizlik məsələləri müzakirə olunub, Slovakiya Silahlı Qüvvələrinin inkişafına dair brifinq təqdim edilib.



# Milli Müdafiə Universitetinin nümayəndə heyəti Bolqarıstan Respublikasına səfər edib





Azərbaycan Respublikasının Milli Müdafiə Universitetinin (MMU) nümayəndə heyəti Sofiya şəhərində Bolqarıstan Respublikasının G.S.Rakovski adına Hərbi Akademiyasının yaradılmasının 113-cü ildönümünə həsr olunmuş təntənəli tədbirdə iştirak edib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdən sonra MMU-nun rektorunun elm üzrə müavini - Hərbi Elmi Tədqiqat İnstitutunun rektoru general-mayor Arif Həsənov G.S.Rakovski adına Hərbi Akademiyanın rəisi general-mayor Stayko Prokopiev ilə görüşüb.

Görüş zamanı qarşılıqlı brifinqlər təqdim olunub, hərbi təhsil sahəsində ikitərəfli əməkdaşlıq imkanları ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan Ordusunda həyata keçirilən islahatlar çərçivəsində Milli Müdafiə Universitetində aparılan struktur dəyişiklikləri, innovativ və texnoloji yeniliklər nəzərə alınmaqla tədris prosesinin təkmilləşdirilməsi, eləcə də digər inkişaf istiqamətlərinə dair məlumat verilib.

Tərəflər MMU ilə G.S.Rakovski adına Hərbi Akademiya arasında davamlı və faydalı əməkdaşlığın vacibliyini xüsusi vurğulayıblar.

Səfər çərçivəsində MMU-nun nümayəndə heyəti Akademiyada təhsil alan azərbaycanlı kursantlarla görüşüb, onların tədris prosesi, sosial-məişət şəraiti və ümumi hazırlıq səviyyələri ilə maraqlanıb.

Kursantların təklif və fikirlərini dinləyən MMU-nun nümayəndələri onları maraqlandıran sualları cavablandırıblar.

# Belarusda hərbi təhsil üzrə mütəxəssislərin işçi görüşü keçirilib

*Minsk şəhərində Azərbaycan və Belarusun hərbi təhsil üzrə mütəxəssislərinin işçi görüşü keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, iki ölkə arasında hərbi əməkdaşlıq planına müvafiq olaraq keçirilən görüşün məqsədi Belarus Respublikasının hərbi təhsil müəssisələrində hərbi mütəxəssislərin hazırlanması məsələlərinin öyrənilməsi və müvafiq sahədə qarşılıqlı təcrübə mübadiləsinin həyata keçirilməsidir.

Belarus Hərbi Akademiyasında olan Azərbaycan Milli Müdafiə Universitetinin nümayəndə heyəti burada elmi nailiyyətlər sərgisi ilə tanış olub.




Belarusun hərb tarixi və Böyük Vətən Müharibəsi muzeyi ilə tanışlıqdan sonra hər iki ölkə mütəxəssislərinin iştirakı ilə işçi görüşü keçirilib, təhsillə bağlı bir sıra məsələlər barədə müzakirələr aparılıb.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Belarus Milli Texniki Universitetinin Hərbi-texniki fakültəsini, həmçinin Belarus Dövlət İnformatika və Radioelektronika Universitetinin və Belarus Dövlət Aviasiya Akademiyasının hərbi fakültələrini ziyarət ediblər.

Ziyarət zamanı təhsil müəssisələrinin strukturu, hərbi kadrların hazırlanması üzrə mövcud imkanlar, tədris prosesi və qarşıda duran vəzifələr, eləcə də Azərbaycan hərbçilərinin Belarusda təhsili və hazırlığı mövzularında təşviqedici brifinq təqdim olunub.

# Azərbaycan HDQ-nin nümayəndə heyəti Ankaraya səfər edib








Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) nümayəndə heyəti, Hərbi Dəniz Qüvvələri komandanının birinci müavini - qərargah rəisi 1-ci dərəcəli kapitan Teymur Mürşüdovun rəhbərliyi ilə "Azərbaycan-Türkiyə HDQ arasında 10-cu Qərargah danışıqları"nda iştirak məqsədilə Ankara şəhərinə səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, səfərin əvvəlində nümayəndə heyəti Ankara şəhərində yerləşən Heydər Əliyev parkını ziyarət edərək Ümummilli Liderin abidəsi önünə gül dəstələri qoyub, onun əziz xatirəsini dərin ehtiramla yad edib. Daha sonra nümayəndə heyəti Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarət edib.

Səfər çərçivəsində iki qardaş ölkənin HDQ arasında əməkdaşlıq məsələləri müzakirə olunub, qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb və müxtəlif sahələr üzrə ətraflı fikir mübadiləsi aparılıb.

Toplantının yekununda Azərbaycan və Türkiyə HDQ arasında əməkdaşlığın inkişafına dair birgə razılaşmanı əks etdirən protokol imzalanıb.

# Qazaxıstanlı qonaqlar Komando və XTQ hərbi hissələrində olublar





(Əvvəli 1-ci səhifədə)

Sonra nümayəndə heyəti qapalı idman zalı, əsgər yataqxanası və yeməkxanaya baxış keçirib. Qonaqlara şəxsi heyətin idman fəaliyyətləri nümayiş etdirilib.

Hərbi hissənin ərazisindəki qapalı atış kompleksində tapança, pnevmatik silah və kiçikçaplı tüfənglərdən atışlar icra olunub.

Qonaqlar tam təchizatlı komandoların sıra hazırlığına baxdıqdan sonra onların dağ komando qülləsində və kəşfiyyat cığırında fəaliyyətlərini izləyiblər.

Qazaxıstan nümayəndə heyəti daha sonra Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-mayor Ələkbər Cahangirovla görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərə dair geniş müzakirələr aparılıb.



# Müdafiə Nazirliyində dövlət qurumları və QHT nümayəndələri ilə görüş keçirilib



Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsində bir sıra dövlət qurumları və Qeyri-Hökumət Təşkilatları (QHT) nümayəndələrinin, həmçinin ekspertlərin iştirakı ilə tədbir keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü və ölkəmizin suverenliyi uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Tədbirdə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyası haqqında zəruri məlumatlar verilib. Qeyd olunub ki, ordu quruculuğunda aparılan islahatların tərkib hissəsi kimi, strateji kommunikasiya sahəsi də dövrün tələbləri və müasir yeniliklər çərçivəsində inkişaf etdirilir.

# Hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyəti diqqət mərkəzindədir

(Əvvəli 1-ci səhifədə)

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə əsas diqqət hərbi kollektivlərdə milli-mənəvi dəyərlərimizin təbliğinə, mənəvi-psixoloji vəziyyətin, sosial problemlərin öyrənilməsinə, hüquq qaydaları və hərbi intizamın möhkəmləndirilməsi məsələlərinə yönəldilib.

Keçirilən görüşlərdə hərbi xidmətə yeni gəlmiş hərbi qulluqçuların fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, onların hərbi xidmətə adaptasiyası, şəxsi heyətin normalara uyğun keyfiyyətli qidalanması, xidmət prosesində şəxsi heyətin sağlamlığının qorunması məqsədilə təhlükəsizlik qaydalarına düzgün əməl olunması məsələləri diqqət mərkəzində olub.

Görüşlər zamanı hərbi intizamın möhkəmləndirilməsində, döyüş növbətçiliyinin aparılmasında əsgəri qardaşlıq və dostluğun, qarşılıqlı münasibətlərin nizamnamələr çərçivəsində qurulmasının rolu və əhəmiyyəti barədə maarifləndirici söhbətlər aparılıb, bir sıra mədəni-kütləvi tədbirlər keçirilib.



Tədbirlər çərçivəsində, həmçinin fərdi qaydada söhbətlər aparılıb, gənc əsgərləri maraqlandıran suallar cavablandırılıb.

# Dərbənddə Dağıstan və Azərbaycan veteranlarının birgə forumu keçirilib

(Əvvəli 1-ci səhifədə)

Təşkilat sədri qeyd edib ki, Bakı nefti faşizm üzərində qələbəni təmin edilməsində həlledici rol oynamışdır. O, 44 günlük Vətən müharibəsində xalqımızın Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında erməni faşizminə qarşı apardığı mübarizədən də bəhs edib, apardığımız haqq savaşında ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün təmin edildiyini bildirib.

Forumda Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının mətbuat katibi Seymur Əliyev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri polkovnik Samir Musayev, Nərimanov Rayon Veteranlar Təşkilatının sədr müavini polkovnik Süleyman Əlibəyov da iştirak ediblər.



Qeyd edək ki, forumun təşkilatçısı Ümumrusiya Müharibə, Əmək və Silahlı Qüvvələr və Hüquq-mühafizə orqanlarının Veteranları Təşkilatının Dağıstan regional bölməsidir.

*Milli Qəhrəmanlarımız*

# Dəmir iradəli qəhrəman

Tarixin yaddaşına həkk olunan elə insanlar var ki, onların həyat yolu bir xalqın mübarizə ruhunu yaşadır, gələcək nəsillərə örnək olurlar. Bu adlar təkcə tərcümeyi-hallarda deyil, həm də yaddaşlarda yaşayırlar.

Belə şəxsiyyətlərdən biri olan İsgəndər Aznaurovun adı səngərlərin səssizliyində də səslənir, dağların gur səsində də eşidilir. İsgəndər yalnız bir topçu deyildi, o, həm də iradənin poladdan heykəli, Vətən eşqinin od tutub alışan simvolu idi.

İsgəndər Söhrab oğlu Aznaurov 1956-cı il avqustun 16-da Özbəkistanın Buxara şəhərində anadan olub. Orta təhsilini başa vurduqdan sonra 1974-cü ildə hərbi xidmətə çağırılıb və artilleriya qoşunlarında qulluq edib. Hərbi biliklərini mükəmməl şəkildə mənimsəyən İsgəndər Özbəkistanın Daxili İşlər Nazirliyində çalışıb, sonra isə Azərbaycana köçüb. Onun Azərbaycanın Gədəbəy rayonuna gəlişi sadə bir köç deyildi - bu, Vətən sevgisinin dağlar qoynuna köçü idi.

Birinci Qarabağ müharibəsi zamanı İsgəndər Aznaurov könüllü olaraq cəbhəyə yollanıb. Artilleriya sahəsindəki təcrübəsi onu cəbhə bölgəsində seçilən bir döyüşçüyə çevirib. Gədəbəyin müdafiəsində müstəsna xidmətlər göstərib. Onun dəqiq nişangahlı topları düşmən mövqelərini darmadağın edirdi, hər döyüşü bir qəhrəmanlıq dastanına çevrilirdi. Elə bu səbəbdən də döyüş yoldaşları ona ehtiramla "Topçu İsgəndər" deyirdilər.

İsgəndər Aznaurov yalnız silahla deyil, həm də ruhla döyüşürdü. O, əsgərlərin əhval-ruhiyyələrini yüksəldən, onlara əsl vətənpərvərlik dərsi keçən, qorxu bilməyən bir komandir idi. Onun olduğu səngərdə qorxu yerini qürurla dəyişirdi.



1993-cü ilin 18 aprelində Gədəbəydə "Örükdaş"da düşmənin 13 texnikasına qarşı 3 növ texnika ilə vuruşur. Səhhətində problemlər yaranmasına baxmayaraq müalicə almaqdan imtina edir. Daha sonra arxa cəbhədəki mövqeyini tərk edərək, minalanmış geniş ərazini keçərək ön cəbhəyə - döyüşlərin ən qızğın hissəsinə yollanır. Orada Aznaurovun topu düşmən hədəfinə tuş gəlir və o, Qəhrəmancasına həlak olur. Onun həyatı mərd və qətiyyətli mübarizənin parlaq nümunəsinə çevrilib. Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin 24 fevral 1994-cü il tarixli Fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

O, Bakı şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Hər il minlərlə insan onun məzarını ziyarət edir, ruhuna dualar oxuyur.

İsgəndər Aznaurovun ömür yolu onu tanıyan hər kəsin qəlbində dərin iz buraxıb. Onun şəxsiyyəti yalnız cəbhədə göstərdiyi igidliklə deyil, həm də sadəliyi, səmimiliyi və əqidəsinə sadiqliyi ilə seçilib. Vətənin dar günündə əsl vətənpərvər övlad kimi sinəsini qabağa verərək, nəinki düşmənin hücumunu dəf edib, həm də gələcək nəsillərə əsl qəhrəmanlığın nə olduğunu nümayiş etdirib.

İsgəndər Aznaurovun həyat yolu bizə bir daha sübut edir ki, Vətəni sevmək sözlə deyil, əməllə ölçülür. Onun keçdiyi bu şərəfli yol Axıskadan Azərbaycana, oradan isə şəhidlik zirvəsinə qədər uzanan mənəvi iradənin təcəssümüdür.

Bu gün onun adı məktəblərə, küçələrə verilir, haqqında sənədli filmlər hazırlanır, xatirəsi dövlət səviyyəsində əziz tutulur. Ancaq ən böyük xatirə onun qəhrəmanlığını yaddaşında daşıyan bir millətin sevgisidir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

## "Bu bayrağı oğlum Türkaya çatdırın"



Azərbaycan Ordusunun igid kapitanı, xüsusi təyinatlı bölmələrdə qrup komandiri olmuş Kamil Əliş oğlu Şirinov Vətən müharibəsi zamanı həyatını xalqına və torpağına fəda etmiş mərd Azərbaycan oğludur. O, döyüş yoldaşının həyatını xilas edərkən düşmən snayperinin gülləsinə tuş gəlmiş, sinəsində daşıdığı Azərbaycan Bayrağını döyüş yoldaşına verərək "Bunu oğlum Türkaya çatdırın" demişdir. Bu sözlər onun Vətənə olan sevgisinin, ata qürurunun və şəhidliyə hazır bir ruh daşıdığının ifadəsi idi.

Kapitan Kamil Şirinov 1991-ci il aprelin 9-da Salyan rayonunun Çuxanlı kəndində hərbçi ailəsində dünyaya gəlib. Atası Əliş Birinci Qarabağ müharibəsi iştirakçısıdır. Kamil və qardaşı atalarının yolunu davam etdirmək üçün hərbçi olmağa qərar vermişdilər. Kamil uşaq yaşlarından hərb sənətinə maraq göstərmiş, məqsədini və yolunu dəqiq müəyyənləşdirmişdi.

İbtidai və orta təhsilini doğma kəndində, şəhid Ziyad Həmidovun adını daşıyan Çuxanlı kənd tam orta məktəbində başa vuran Kamil 2006-cı ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olur. Liseyi uğurla bitirdikdən sonra 2009-2013-cü illərdə indiki Heydər Əliyev adına Hərbi İnstitutu "leytenant" hərbi rütbəsi ilə bitirərək Azərbaycan Ordusunun xüsusi təyinatlı bölmələrində xidmətə başlayır və qısa zaman ərzində peşəkarlığı, fiziki hazırlığı, dəqiqliyi və iradəsi ilə seçilir.

Aprel döyüşlərində onun fədakarlığı və igidliyi ön plana çıxır. O, düşmənə qarşı amansız mübarizə aparır. Bu şücaətinə görə "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilir. Prezident İlham Əliyev həmin medalı ona şəxsən özü təqdim edir. Həmin döyüşlərdə qazanılan uğurlar Kamilin hərbi həyat yolunu daha da möhkəmləndirir. Dostları onu "Sarı komutan" kimi çağırırdılar. Bu ləqəb həm rəğbət, həm ehtiram, həm də inam rəmzi idi. Xidmət illərində Kamil Türkiyə, Pakistan və digər ölkələrdə keçirilən hərbi təlimlərdə iştirak etmiş, bilik və bacarıqlarını artırmışdır.

2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində Kamil ilk günlərdən ön cəbhəyə atılmışdı. Onun döyüş yolu Füzuli istiqamətindən başlamış, komandiri olduğu bölük ilə birlikdə düşmənin möhkəmləndirdiyi mühəndis-istehkam səddinin darmadağın edilməsində iştirak etmişdi. Düşmənin mühəndis-istehkam xəttini keçmək böyük fədakarlıq və hazırlıq tələb edirdi. Bu döyüşdə Kamil düşmən snayperinin gülləsinə tuş gələrək şəhidlik zirvəsinə yüksəldi.

Kapitan Kamil Şirinov döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Kamil ailəsinə çox bağlı idi. Cəmi üç il ailəli olsa da, bu illər onun həyatında dərin izlər buraxmışdı. İki övladı onun ən böyük yadigarıdır. Kamil həm də futbolu çox sevirdi. "Qalatasaray" azarkeşi olan Kamil kapitanı olduğu futbol komandası ilə tez-tez yarışlarda iştirak edir, onları daim qələbəyə aparırdı.

Kamil Şirinovun adı Azərbaycan tarixində əbədi yaşayacaq. Onun qəhrəmanlığı yalnız döyüş meydanında deyil, eyni zamanda, şəxsi həyatında və xalqına olan bağlılığında da təzahür edirdi.

Kamil Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlıq nümunəsi və şəhidlik zirvəsinə ucalması ilə daim yaddaşlarda qalacaq.

Vətən uğrunda döyüşlərdə canını fəda edən hər bir şəhidimiz, o cümlədən Kamil Şirinov Azərbaycan tarixinin ən parlaq səhifələrində dərin izlər buraxıb. Onlar gələcək nəsillərə Vətənə olan sevginin, mərdliyin və fədakarlığın nümunəsidirlər.

**Baş leytenant**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

## Vətənə sədaqəti ilə əbədi ünvan qazandı

Şanlı tariximiz saysız-hesabsız qəhrəman övladlarımızın fədakarlığı ilə yazılıb. Bu igidlər Vətənimizin qədrini bilən, onun uğrunda canını fəda etməyə və içmiş əqidə sahibləridirlər. Hər biri müstəqil dövlətimizin, məğrur xalqımızın sarsılmaz iradəsinin canlı təcəssümüdür.

44 günlük Vətən müharibəsi zamanı öz həyatını torpaqlarımızın bütövlüyünə sipər edən bu igidlərdən biri də şəhid polkovnik-leytenant Xeyrulla İbrahimovdur. O, təkcə peşəkar hərbçi deyil, həm də ruhən əsgər, qəlbən vətənpərvər, əməli ilə zabitlik şərəfini daşıyan, sonda isə şəhidlik zirvəsinə ucalaraq adını xalqımızın yaddaşına əbədi həkk edən bir şəxsiyyətdir.

Xeyrulla İbrahimov 19 aprel 1971-ci ildə Bakı şəhərində anadan olub. Hərb sahəsinə olan marağı onu 1988-ci ildə indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gətirir. Bu seçim onun ömürlük peşəsini, həm də taleyini müəyyənləşdirir. 1992-ci ildə Xmelnitski adına Ali Artilleriya Komandanlıq Məktəbini bitirən gənc zabit 2000-ci ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyasını uğurla başa vuraraq hərbi sahədə yüksək ixtisasa yiyələnir.

Azərbaycan Ordusunda keçdiyi xidmət yolu özündə böyük peşəkarlıq və fədakarlıq nümunələri daşıyır. O, müxtəlif vəzifələrdə xidmət edərək etimadı doğruldub. 27 oktyabr 2011-ci ildə ehtiyata buraxıldıqdan sonra belə hərbi həyatla bağlarını qırmayıb və Vətənin çağırışı gəldikdə, bir an belə tərəddüd etmədən ön cəbhəyə yollanıb.

Vətən müharibəsinin başlandığı ilk günlərdən Xeyrulla İbrahimov yenidən silaha sarılır. Hərbi hissənin artilleriya rəisi kimi üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirir. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə onun taktiki biliyi və komandirlik bacarığı hərbi qulluqçularımızın həyatını qoruyur, Vətənimizin isə hər qarış torpağının azad edilməsinə töhfə olur.

2020-ci il oktyabrın 26-da Xocavənd rayonunun Zoğalbulaq kəndi istiqamətində gedən ağır döyüşlər zamanı polkovnik-leytenant Xeyrulla İbrahimov qəhrəmancasına şəhid olur. Onun qanı ilə suladığı torpaqlarımız bu gün müstəqilliyimizin, suverenliyimizin və qürurumuzun rəmzidir.



Hələ sağ ikən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Hərbi xidmətlərə görə", müdafiə nazirinin əmrinə əsasən "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" medalları ilə təltif olunub. Şəhid polkovnik-leytenant Xeyrulla İbrahimovun həyatı sarsılmaz iradənin, ali Vətən sevgisinin və zabitlik əzminin təntənəsidir. İndi onun ruhu işğaldan azad olunan tarixi torpaqlarımızda, Azərbaycan bayrağının dalğalandığı ərazilərimizdə dolaşır.

Vətən müharibəsi zamanı üzərinə düşən vəzifələrin öhdəsindən yüksək məsuliyyət və peşəkarlıqla gələn, döyüş meydanında igidliyi və fədakarlığı ilə fərqlənən, düşmənə ciddi zərbələr endirərək onun canlı qüvvəsini və texnikasını sıradan çıxaran zabitimiz ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

## Dünyanın ən hündürdə yerləşən gölü

Titikaka dünyanın ən hündürdə yerləşən göldür. 8288 kvadrat kilometr sahəyə malikdir. Cənubi Amerikanın ən böyük şirin sulu göldür. Tektonik çatlar nəticəsində əmələ gəlib.

Qərb sahili Peruya, şərq sahili isə Boliviyaya aiddir.

Titikaka gölündə ticarət gəmiləri də üzür. Dəniz səviyyəsindən yüksəkliyi 3810 metrdir. 194 km uzunluğa və 65 km enə malikdir. Orta dərinliyi 140-180 metr, ən dərin yeri 280 metrdir. 25-dən çox çay bu gölə tökülür. Ətrafında yaşayan xalq üçün göldə balıqçılıq əhəmiyyətli bir dolanışıq mənbəyidir.

"Titi" böyük pişik, "kaka" isə qaya mənasını verir və tərcüməsi Puma qayasında olaraq başa düşülür.

**"Azərbaycan Ordusu"**



*Hərbi texnikalar, silahlar*

## Britaniya pilotsuz uçuş aparatlarına qarşı yeni silah hazırlayıb




Böyük Britaniya ordusu pilotsuz uçuş aparatlarına (PUA) qarşı mübarizədə mühüm addım ataraq yönləndirilmiş enerji silahını sınaqdan keçirib və çoxsaylı dronu uğurla zərərsizləşdirib.

Bu barədə Böyük Britaniya Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Uelsin qərbində yerləşən test poliqonunda keçirilən bu məşq Böyük Britaniya ordusunun bu günədək keçirdiyi ən böyük PUA əleyhinə əməliyyat olub.

Böyük Britaniyada istehsal olunan bu innovativ silah görünməz radio dalğalarından istifadə edərək dron dəstələrinin fəaliyyətini pozur və onları sıradan çıxarır. Bu, havadan gələn getdikcə mürəkkəbləşən təhlükələrə qarşı potensial olaraq oyundəyişdirici müdafiə vasitəsi hesab olunur. Təhlükəsizlik səbəbindən texnologiyanın detalları açıqlanmayıb.



Müdafiə Nazirliyi bildirib ki, bu sistem Radiofrekans Yönləndirilmiş Enerji Silahı (RF DEW) tipinə aiddir və bir neçə hədəfi demək olar ki, dərhal zərərsizləşdirmək qabiliyyətinə malik olduğunu sübut edib. Britaniya hökuməti bu texnologiyanın tədqiqat və inkişafına bu günədək 40 milyon funt sterlinqdən çox sərmayə yatırıb. Layihə Şimali İrlandiya və İngiltərənin cənub-şərqində ümumilikdə 135 iş yerinin açılmasına da dəstək verib.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar



### Cənubi Koreya dronları uzaqdan aşkarlaya bilən radar sistemini sınaqdan keçirib

Cənubi Koreya cümə axşamı bildirib ki, bir neçə kilometr məsafədə yerləşən dronları aşkarlaya bilən yeni radar texnologiyasını uğurla sınaqdan keçirib.

Yonhap agentliyi xəbər verir ki, Cənubi Koreyanın Müdafiə İnkişafı Agentliyi (ADD) açıq havada süni intellektə əsaslanan fotonik radar texnologiyasından istifadə edərək uzaq məsafədə kiçik dronları uğurla aşkarladığını bildirib. Agentlik hərbi təhlükəsizliyə istinad edərək, pilotsuz uçuş aparatının dəqiq məsafəsi və ölçüsü də daxil olmaqla, sınaqla bağlı əlavə təfərrüatları açıqlamayıb.

Cənubi Koreya 2022-ci ildən bəri mövcud optik avadanlıqdan istifadə etməklə müəyyən edilə bilməyən dron təhlükələrinə daha yaxşı cavab verməsk üçün radar texnologiyasını inkişaf etdirməyə çalışır. ADD-nin məlumatına görə, bu texnologiya ordunun kəşfiyyat imkanlarını gücləndirəcək.

### Almaniya müharibəyə başlayandan sonra Ukraynaya 28 milyard avroluq hərbi yardım göstərib



Ukraynada müharibə başlayandan Almaniya bu ölkəyə 28 milyard avro məbləğində hərbi yardım göstərib.

Almaniya Hökumətinin saytı xəbər verir ki, hərbi yardım federal hökumətin vəsaiti ilə sənaye tərəfindən hərbi texnika və digər materialların tədarükünün maliyyələşdirilməsi və Silahlı Qüvvələrin ehtiyatlarından tədarüklər hesabına həyata keçirilib.

Təkcə 2024-cü ildə Ukraynanın təhlükəsizlik qabiliyyətinin artırılması təşəbbüsü üçün ayrılmış vəsait 7,1 milyard avro təşkil edib. Bu vəsaitdən, həmçinin Almaniyanın Avropa İttifaqının Avropa Sülh Mexanizminə (EPF) verdiyi töhfələr də maliyyələşdirilir. EPF çərçivəsində Ukraynaya hərbi yardım üçün çəkilən xərclər Aİ üzv dövlətlərinə geri ödənilə bilər. Bundan əlavə, növbəti illərdə öhdəlik götürmək üçün təxminən 6 milyard avro dəyərində icazələr mövcuddur.

İndiyədək 5 milyard (2023-cü il üçün) və 1,6 milyard avro (2022-ci il üçün) Ukraynaya hərbi yardım üçün sərf olunub. Əlavə olaraq, müharibənin ilk iki ilində təxminən 2,9 milyard avro məbləğində öhdəlik götürülüb ki, bu çərçivədə çatdırılmalar yalnız 2025-2028-ci illərdə həyata keçiriləcək.

Müharibə başlayandan bəri Almaniya Silahlı Qüvvələrinin ehtiyatlarından təxminən 5,2 milyard avro dəyərində hərbi sursat göndərilib. Ən mühüm texnikalar arasında 103 ədəd "Leopard 1 A5" döyüş tankı və 18 ədəd "Leopard 2A6" tankı yer alır. Hava hücumundan müdafiə sahəsində Almaniya Ukraynaya 6 ədəd "IRIS-T SLM" və "SLS" hava hücumundan müdafiə sistemi, 4 ədəd "Patriot" buraxılış qurğusu və 60 ədəd "Gepard" özüyeriyən zenit qurğusu göndərib. Artilleriya dəstəyi çərçivəsində Ukraynaya 25 ədəd "Panzerhaubitze" 2000 özüyeriyən haubitsa, 5 ədəd "MARS II" raket buraxılış sistemi və 3 ədəd HIMARS sistemi təqdim olunub. Həmçinin 549 ədəd VECTOR kəşfiyyat dronu, 900 ədəd HF-1 zərbə dronu və 684 ədəd RQ-35 HEIDRUN dronu, habelə 500 ədəd STINGER və 2700 ədəd STRELA tipli daşınan hava hücumundan müdafiə sistemləri gönədirilib.

Bundan əlavə, 10 mindən çox ukraynalı əsgər Almaniyada hərbi təlim keçib. Bu təlimlər üçün indiyədək 282 milyon avro xərclənib. Müharibədə yaralanmış ukraynalı əsgərlərin tibbi müalicə xərcləri bu hesabata daxil edilməyib.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman



### Soydaşlarımız uşu-sanda üzrə IX Gürcüstan çempionatında 8 qızıl medal qazanıblar

Tbilisidə uşu-sanda üzrə IX Gürcüstan çempionatı başa çatıb.

Tbilisidəki Gimnastika Arenasında keçirilən çempionat Gürcüstanda yaşayan azərbaycanlılar üçün xüsusilə yaddaqalan olub. Soydaşlarımız bu çempionatda 29 medal qazanıblar.

Gürcüstanın İdman və Gənclər Nazirliyi, Gürcüstan Uşu-sanda Federasiyası və Çinin bu ölkədəki səfirliyinin birgə təşkil etdiyi çempionatda ölkənin bütün bölgələrindən, o cümlədən Kvemo-Kartli bölgəsinin Uşu-sanda Federasiyasının tərkibindəki "Marneuli" və "Qaraçöp" klublarının yetirmələri iştirak edirlər.

Kvemo Kartli bölgəsinin Uşu-sanda Federasiyasının prezidenti, dəfələrlə SSRİ, Avropa və ikiqat dünya çempionu, Azərbaycanın Əməkdar idman ustası, Əməkdar məşqçi Canpolat Budaqov bildirib ki, çempionata 8 yaşdan yuxarı, 4 yaş kateqoriyasında və müxtəlif çəki dərəcələrində 32 soydaşımız mübarizə aparıb.

Uşu-sanda üzrə idman ustası Faiq Məmmədovun rəhbərlik etdiyi "Marneuli" klubunun 3 üzvü qızıl medal qazanıb. Bir idmançı ikinci, 8 idmançı isə üçüncü yerə sahib olublar.

Kikboksinq üzrə idman ustası İbrahim Məmmədovun rəhbərlik etdiyi "Qaraçöp" klubunun yetirmələri isə 5 qızıl medal qazanıblar. Klubun 8 yetirməsi çempionatı ikinci, 4-ü isə üçüncü pillədə başa vurublar. İki gün davam edən yarışdan sonra idmançılar Tbilisidəki Heydər Əliyev büstünü ziyarət edəcəklər. Onların bu uğurları Ümummilli Liderin doğum gününə həsr olunub.

### Azərbaycan ağırlıqqaldıranı Avropa çempionatında 3 medal qazanıb



Ağırlıqqaldırma üzrə Azərbaycan yığma komandasının üzvü İsa Rüstəmov Moldovanın paytaxtı Kişineu şəhərində keçirilən Avropa çempionatında uğurla çıxış edib.

Atletimiz birdən qaldırma hərəkətində 138 kiloqram nəticə göstərərək bürünc medala sahib olub. Təkanla qaldırma hərəkətində 170 kiloqram ağırlığı başı üzərinə qaldıran İsa bu dəfə fəxri kürsünün birinci pilləsinə yüksəlib.

Toplamda 308 kiloqram nəticəyə imza atan idmançımız yekun sıralamada ikinci olub və iki hərəkətin cəmində Avropa çempionatının gümüş mükafatını qazanıb.



### Lionel Messi dünya çempionatında oynamaq istəyir

ABŞ-ın "İnter Mayami" klubunun futbolçusu Lionel Messi gələcəyi ilə bağlı sualı cavablandırıb.

Argentinalı hücumçu xarici mətbuata açıqlamasında qarşıdakı hədəflərindən danışıb.

Ulduz oyunçu bütün diqqətini indiki zamana yönəltdiyini bildirib: "Amma 2026-cı il dünya çempionatı haqqında düşünmədiyimi desəm, yalan danışmış olaram. Bəli, bu barədə düşünürəm. Bu il gələcəyimlə bağlı qərarlar qəbul etmək baxımından çox önəmli olacaq".

Qeyd edək ki, 2023-cü ilin yayından "İnter Mayami"də çıxış edən Lionel Messi bu müddət ərzində 49 matçda 42 qol və 21 məhsuldar ötürmə ilə yadda qalıb. Onun komandası ilə müqaviləsi 2025-ci ilin sonuna kimidir.

**AZƏRTAC-ın materialları əsasında**

| Redaktor | Telefonlar | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor<br>Ceyhun CƏFƏRLİ | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, Yasamal rayonu,<br>Şəfaət Mehdiyev küçəsi 144,<br>"Qızıl Şərq" hərbi şəhərciyi | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | baş leytenant<br>Əli ABIYEV | Lisenziya № 361<br>Sifariş № 152<br>Nüsxə 3663 |